# Vətəndaşlarımızın sosial təminatının gücləndirilməsi uğurla davam edir



**Artıq Azərbaycanda yeni sosial paketin reallaşmasına şahidlik etməkdəyik. 2 milyondan artıq vətəndaşımızı əhatə edəcək sosial paketə 1,4 milyard manat əlavə vəsaitin ayrılması nəzərdə tutulur. İstər minimum əməkhaqqı, istərsə də dövlət büdcəsindən maliyyələşən sektorlarda çalışan vətəndaşlarımızın əməkhaqlarındakı artımlar yeni sosial paketin kifayət qədər əhatəliliyindən xəbər verir. Həm sosial baxımdan daha çox dəstəyə ehtiyacı olan həssas kateqoriyadan olan vətəndaşlarımızın daha yaxından dəstəklənməsi, xüsusən də dövlət büdcəsindən maliyyələşən sferalarda çalışan vətəndaşlarımızın əməkhaqlarının artırılması sosial təminatın daha da yaxşılaşdırılması məqsədini daşıyır.**

2022-ci ilin dövlət büdcəsindən sosial xərclərin payı 46,4 faizə qədər yüksələcək və Azərbaycanın müstəqillik dövründə ilk dəfə olaraq sosial xərclərin dövlət xərclərindəki payı 45 faizlik limiti keçəcək. Bu isə ondan xəbər verir ki, gələn il büdcədən ayrılan hər iki manatdan təxminən bir manatı sosial sferaya yönəldiləcək. Bu sosial istiqamətə 14 milyard manata yaxın vəsaitin ayrılması anlamına gəlir. Bu da növbəti sosial təminatın gücləndirilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi prioritetliyini qoruyub saxlayacaq.

Təbii ki, bu eyni zamanda Azərbaycanda rifah halının gücləndirilməsi ilə bağlı aparılan islahatların bir elementi kimi də xarakterizə olunmalıdır. Hər bir vətəndaşımızın sosial təminatının gücləndirilməsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Son yeni sosial paketin maliyyələşdirilməsi, ölkə rəhbərliyi tərəfindən vətəndaşlarımızın sosial təminatının gücləndirməsi ilə bağlı dövlət büdcəsindən vəsaitlərin ayrılması, pandemiyanın davam etməsinə baxmayaraq, sosial proqramların maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi və heç bir sosial proqramın təxirə salınmaması bu diqqət və qayğını bir daha nümayiş etdirdi.

Minimum əməkhaqqının artırılması 800 mindən artıq vətəndaşımızı əhatə edəcək və bu artım yalnız dövlət deyil, həm də özəl sektorda çalışan vətəndaşlarımızın gəlirlərinə də təsir göstərəcək. Çünki həm özəl, həm dövlət sektorunda minimum əməkhaqqıdan aşağı əməkhaqqının ödənilməsi qadağan edilir. Bu da təbii ki, həm özəl sektorda, həm dövlət qurumlarında, həm də sosial və ictimai proqramlarda çalışan vətəndaşlarımızın əməkhaqlarının artması anlamına gəlir. Digər tərəfdən, minimum əməkhaqqı və dövlət büdcəsindən maliyyələşən vətəndaşlarımızın maaşlarında deyil, həm də pensiyalar, digər sosial müavinətlərdə də artımların olacağı proqnozlaşdırılır. Çünki nəzərə alsaq ki, birbaşa əməkhaqqı və təqaüdlərin, müavinətlərin artırılması ilə yanaşı, həm də sosial proqramlara ayrılan vəsaitlərin həcmində də artımlar olacaq. Həm də 2022-ci ildə yaşayış minimumunun 210 manata ehtiyac meyarının 170 manatdan 200 manata çatdırılması, sosial proqramlarda gəlir əldə edən vətəndaşlarımızın da gəlirlərində artımlara gətirib çıxarır. Belə ki, xüsusən də ünvanlı sosial yardım proqramında artıq aylıq ödənilən məbləğin həcmində gələn aydan etibarən gəlirlər müşahidə olunacaq.

Yanvar ayından etibarən pensiyaların indeksasiyası həyata keçiriləcək. Əmək pensiyalarının tam olaraq indeksasiya olunması artıq gələn aydan etibarən pensiya məbləğlərində artımlara gətirib çıxaracaq.

Artımlar 2022-ci ildə və növbəti illərdə də təbii ki, davam etdiriləcək. Çünki bütövlükdə ölkə Prezidenti tərəfindən təsdiq edilmiş strategiyanın əsas istiqamətlərindən biri sosial təminatın daha da gücləndirilməsi, həm pensiya, həm də əməkhaqqı sisteminin daha da təkmilləşdirilməsindən ibarətdir. Ona görə də sosial siyasət bütövlükdə ölkədə həyata keçirilən siyasətin əsas istiqaməti olaraq qalmaqdadır. Və 2022-ci il bu kontekstdən fərqli illərdən biri olacaq. Çünki 2022-ci ildə məhz sosial təminatın daha da gücləndirilməsini müşahidə edəcəyik. Eyni zamanda, növbəti il inflyasiyaya qarşı mübarizə tədbirləri də gücləndiriləcək. Və son artımlar göstərir ki, əməkhaqqı və eləcə də digər ödənişlərdə artımların məqsədi həm də neqativ təsirləri minimallaşdırmaqdan ibarətdir. Bu da əməkhaqqı artımları reallığının qorunub saxlanması və qiymət artımları əsasında yaranan xərcin dövlət büdcəsindən maliyyələşmələr hesabına kompensasiya edilməsi anlamına gəlir.

Buna görə də 2022-ci ildə inflyasiyanın tənzimlənməsi, optimallaşdırılması ilə bağlı sistemli tədbirlər həm də əməkhaqqı və pensiyada müşahidə edilən artımların real olması və əhalinin sosial təminatının daha da gücləndirilməsi baxımından vacib hesab olunur. Növbəti il birmənalı şəkildə vətəndaşlarımızın sosial təminatının daha da gücləndirilməsi ili kimi yadda qalacaq.

**Vüqar BAYRAMOV,**
**millət vəkili.**